# Heyvandarlıq kompleksləri aqrar sektorda mühüm yer tutur

***Qəbələdə heyvandarlığın inkişafı istiqamətində görülən işlər müsbət nəticə verməkdədir. Rayonda yaradılan iki müasir heyvandarlıq kompleksi ildən-ilə öz imkanlarını genişləndirir, mal-qaranın sayının, ət və süd istehsalının artmasına təkan verir.***

"Qəbələ-Aqro Kompleks" MMC tərəfindən rayonun Vəndam qəsəbəsində yaradılan 620 başlıq müasir ətlik-südlük heyvandarlıq kompleksi 2013-cü ildə dövlətimizin başçısı İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Müəssisə heyvandarlıq və bitkiçilik sahəsində uğurla fəaliyyət göstərir. Kompleksin nəzdində damazlıq heyvandarlıq təsərrüfatı da yaradılıb. Burada bəslənilən iribuynuzlu heyvanların yemlə təmin edilməsi məqsədilə 1554 hektar ərazidə yem təsərrüfatı yaradılıb. Bu ərazidə hər il müxtəlif növ yem bitkiləri əkilir. Müəssisənin xüsusi yem sexi və 5 silos quyusu var. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aqrar sahədə həyata keçirilən uğurlu islahatlar nəticəsində gündən-günə inkişaf edən bu heyvandarlıq kompleksi Tükmənistana 244 baş damazlıq düyə ixrac edib.

Həmçinin, kompleksə Almaniyadan gətirilən iribuynuzlu heyvanlara düzgün zootexniki qulluq göstərilir, onların sağlamlığı və qidalanması mütəxəssislər tərəfindən daim diqqət mərkəzində saxlanılır. Burada əldə edilən sağlam buzovlar hesabına kompleksdəki heyvanların sayı artırılaraq 1700 başa çatdırılıb. Gün ərzində hər inəkdən orta hesabla 20-25 litr süd əldə edilir.



Bundan əlavə, 2012-ci ildə rayonun Ovcullu kəndində yaradılan 650 başlıq ətlik-südlük iri heyvandarlıq kompleksində də yeni doğulan sağlam buzovların hesabına mal-qaranın sayı 1791 başa çatdırılıb. Bunun 402 başı sağmal inəklərdir ki, onların da hər birindən gün ərzində orta hesabla 25 litr süd sağılır.

Qeyd etdiyimiz komplekslərdə istehsal olunan heyvandarlıq məhsulları əhalinin tələbatının ödənilməsində nəzərəçarpacaq pol oynayır.

Görülən işlərin nəticəsidir ki, son bir ildə rayondakı kiçik fərdi təsərrüfatlarda da iri və xırda buynuzlu mal-qaranın, eləcə də damazlıq heyvanların sayı xeyli artırılıb. Son vaxtlar kiçik fərdi təsərrüfatlarda süni mayalandırma tədbirlərinin genişləndirilməsi heyvandarlıq sahəsinin inkişafına təkan verib. Mal-qaranın damazlıq keyfiyyətinin yaxşılaşdırılması, ət və süd istehsalının artırılması, təbii cütləşmə yolu ilə yayılan xəstəliklərin qarşısının alınması, mal-qaranın qısırlığına qarşı mübarizə aparılması və heyvandarlıq təsərrüfatının iqtisadi səmərəliliyinin artırılması məqsədilə rayonda süni mayalama məntəqələri yaradılıb. Təsərrüfat sahiblərinə iribuynuzlu malqaradan suni mayalanma yolu ilə alınan cins buzovlara görə dövlət tərəfindən həvəsləndirici yardımın verilməsi bu sahəyə marağı daha da artırmışdır.

Hazırda Qəbələdə iri buynuzlu mal-qaranın sayı 46 min 272 başa, o cümlədən inək və camışların sayı 23 min 402 başa, qoyun və keçilərin sayı 190 min 545 başa, donuzların sayı isə 1096 başa çatıb.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Qızılbalıq zavodunda

***Qəbələ Qızılbalıqartırma Zavodunda yeni kürüalma mövsümü davam edir. Zavodda Kür qızılbalığı, əlvan rəngli qızılbalıq, yapon fareli və nərə balıqları yetişdirilir. 1956-cı ildə tikilərək istifadəyə verilən bu müəssisə hazırda Xəzər dənizini və ölkədaxili su hövzələrini qızıl balıq növləri ilə təmin edən istehsalat sahəsidir.***

Hazırda ən nadir 4 növ qiymətli balıq yetişdirilən zavodda işlərin qızğın çağıdır. Kürüdən çıxandan sonra zavodda üç mərhələdə inkişaf dövrünü yaşayan xırda qızılbalıqlar bir il müddətində müxtəlif ölçülü 8 hovuzda bəslənilir.

Qızılbalıqyetişdirmə zavodu 2017-ci ildə Kür çayına 60 min 700 balığın buraxılmasını təmin edib. Ana balıqlardan bu dövrdə 150 min kürü götürülüb. Hazırda zavodda 90 min körpə balıq yetişdirilir. Onların çəkisi 20 qrama qədər artdıqdan sonra Xəzər dənizinə buraxılması üçün adaptasiya olunur. Son mərhələdə dənizə buraxmaq üçün yetişdirilən balıqların çəkisi 300 qrama qədər çatdırılır.

Zavodda ən nadir balıqlardan sayılan nərə balıqlarının kürülərinin alınması üçün elmi təcrübələr aparılır. Bu məqsədlə zavoda gətirilən nərə balıqları artıq üç ildən çoxdur ki, burada bəslənilir. Nərə balıqları 7-8 yaşda kürü verdikləri üçün hələ bir neçə il də bəslənilməlidir. Təcrübələr uğurla nəticələnsə, nərə balıqlarının şirin sularda yetişdirilməsi mümkün olacaq. Belə balıqlar dünya bazarlarında yüksək qiymətə alınır.

Qəbələdə qızılbalıqların yetişdirilməsi üçün ən vacib komponentlərdən biri də ərazidə dağ çaylarının olmasıdır. Çünki həssas, lakin yırtıcı sayılan bu balıqlar daim soyuq və tərkibi minerallarla zəngin olan şirin su hövzələrini sevirlər. Nisbətən çəkisi çox olan qızılbalıqlar xırdaları yediyi üçün onlar ayda bir dəfə seçilir və ayrı-ayrı kanallara yerləşdirilir.

Zavodda kürügötürmə prosesi hər il noyabrın 25-dən yanvarın ortalarınadək davam edir. Qızılbalıqlar bir il ərzində yetişdirildikdən sonra Qaradağ rayonunda yerləşən Xəzər Dəniz Təcrübi Balıqartırma Zavoduna göndərilir və orada şirin sudan duzlu suya uyğunlaşma dövrünü keçir. Çəkisi, rəngi və uzunluğu dövlət standartına uyğun gələn balıqlar Xəzər dənizinə buraxılır.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Meyvə və tərəvəz istehsalçılarına qayğı

Dövlət tərəfindən aqrar sahənin inkişafına göstərilən diqqət və qayğının ildən-ilə artması nəticəsində Qəbələ rayonunda da kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində əhəmiyyətli dərəcədə dəyişiklik hiss olunmuşdur.

Son zamanlar meyvə və tərəvəz məhsullarının istehsalına marağın xeyli artması nəticəsində qəbələlilər tərəfindən istehsal olunan kənd təsərrüfatı məhsullarının rayonda fəaliyyət göstərən emal müəssisələrinə satışı ilə yanaşı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarına da göndərilməsi təmin olunmuşdur.

Belə ki, ötən il ərzində paytaxt yarmarkalarına rayonun kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən 41,2 ton tumlu, 27,4 ton qərzəkli meyvələr və 6,5 ton müxtəlif növ tərəvəz məhsulları çıxarılaraq satılmışdır.

Alıcı və satıcıların rahatlığı üçün hər cür şərait yaradılmış yarmarkada məhsulların keyfiyyətli olması ilə yanaşı süni qiymət artımının olmaması da nəzarətdə saxlanılmışdır.

Kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında istehsalçılarımızın iştirakı davam edir.

**«Qəbələ»**

# Aktivlərlə təmin olunub

***Rayonda işsiz insanların məşğulluğunun təmin edilməsi üçün görülən tədbirlər uğurla davam etdirilir. Rayon məşğulluq mərkəzi ötən il işəgötürən təşkilatlarla sıx əməkdaşlıq edərək, yüzlərlə işaxtaran vətəndaşın boş iş yerlərinə cəlb edilməsinə nail olub.***

2017-ci ildə məşğulluq mərkəzində işaxtaran kimi qeydiyyatdan keçən 1280 nəfərdən 452-si müxtəlif idarə və təşkilatlarda, özəl müəssisələrdə işlə təmin edilib. Onlardan 70-i qadın, 108-i gəncdir. Həmçinin 52 nəfərə işsizlik statusu verilib, müavinət ödənilib. Qeyri-məşğul əhalidən 20 nəfər işaxtaran qadın "Xalçaçılıq" peşə hazırlığı kursuna cəlb edilib, onlardan 10 nəfəri işlə təmin olunub.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar rayonda müvafiq işlər görülür. Ötən il 3-ü xidmət, 13-ü kənd təsərrüfatı sahəsi olmaqla, özünüməşğulluq proqramının 16 iştirakçısı öz bizneslərinə başlamaları üçün lazımi aktivlərlə təmin ediliblər.

Həmin vətəndaşlardan 8 nəfəri ətlik heyvandarlıqla, 4 nəfəri südlük heyvandarlıqla, 1 nəfəri arıçılıqla, 1 nəfəri kiçik qəlyanaltı sahəsində, 1 nəfəri kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfəri isə avtomobil təmiri sahəsində fəaliyyət göstərir. Özünüməşğulluq proqramının iştirakçılarından 7 nəfərə buzovlarla birlikdə 27 baş iribuynuzlu heyvan, 5 nəfərə 122 baş xırdabuynuzlu heyvan, 1 nəfərə kompüter və çap avadanlığı, 1 nəfərə 15 arı ailəsi, 1 nəfərə avtomobil təmiri emalatxanası üçün alətlər, 1 nəfərə isə kiçik qəlyanaltı açmaq üçün tələb olunan avadanlıqlar verilib.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

## 2018 - 2019-cu tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbuluna dair elan

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün*

***müsabiqə elan edir***

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2018-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2018-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyənlər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2018-ci il yanvar ayının 10-dan fevral ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər.

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);
- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;
- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-97-76.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma - 6 dəfə; qaçış 100 metr məsafəyə - 15 saniyə və 1000 metr məsafəyə - 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması - 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə, qaçış 100 metr məsafəyə - 19 saniyə və 1000 metr məsafəyə - 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust - 13 sentyabr 2018-ci il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsus və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Ətraflı məlumatlar akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.